www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-13 (1730) 12 iyul 2021-ci il



# Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb

## Prezident İlham Əliyev Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman imzalayıb

səh. 2

## ATU-nun rektoru nüfuzlu beynəlxalq forumda iştirak edib




**Çin Tibb Universitetinin təşkilatçılığı və rəhbərliyi ilə "Bir Kəmər, Bir Yol Beynəlxalq Tibb Təhsili Alyansı"nın (The Belt and Road International Medical Education Alliance) İdarə Heyətinin 5-ci illik yığıncağı keçirilib. Görüşdə BRIMEA-nın sədri, ÇTU-nun prezidenti, professor Deliang Wen çıxış edərək yığıncağın gündəliyi, təşkilatın gördüyü işlər və gələcək planları haqqında geniş məlumat verib.**

İclasda Çin ilə yanaşı, Qazaxıstan, Pakistan və Özbəkistandan olan 10 ali təhsil müəssisəsinin BRIMEA-ya üzvlük məsələsi müzakirə olunub və təsdiqlənib.

İdarə Heyətinin iclasından sonra Ali tibb təhsili üzrə 5-ci Beynəlxalq Forum da baş tutub. Bu toplantı Çin Tibb Universitetinin Beynəlxalq Tibb Təhsili və Elmi-Tədqiqat İnstitutunun 40 illik yubileyinə həsr olunub. Tədbirin açılış mərasimində beynəlxalq forumun əvvəlki illərdə keçirilmiş iclaslarının xülasəsini, həmçinin ATU rektoru, professor Gəray Gəraybəylinin də daxil olduğu üzv qurumların rəhbərlərinin yubiley münasibətilə səsləndirdikləri təbrik nitqlərini əks etdirən videoçarx nümayiş olunub. Sonra müxtəlif universitetlərin və beynəlxalq təhsil qurumlarının rəhbərləri təbrik nitqləri ilə çıxış ediblər.

Üç sessiya ilə davam edən forumun işində ÇXR, ABŞ, Türkiyə, Pakistan, CAR, Qazaxıstan, Filippin, Rumıniya və Qırğızıstandan olan mütəxəssislərin tibb təhsilinin müxtəlif problemlərinə aid məruzələri dinlənilib. Onlayn formatda keçirilən görüşdə Azərbaycan Tibb Universitetini beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov təmsil edib. O həm də forumun 3-cü sessiyasının həmsədri olub. Forumda ATU-nun tibb təhsili və innovasiya şöbəsinin müdiri Aynur Orucova da iştirak edib.



## Uğurlarınız başucalığımızdır!

*Rektor, professor Gəray Gəraybəyli ATU-da təhsilini başa vuran tələbələri təbrik edib*

səh. 2

## Dövlət Attestasiya komissiyalarının sədrləri hesabat verib

səh. 3

## Dilarə Xəlilova: "Azərbaycanda insult mərkəzlərinin yaradılmasına böyük ehtiyac var"

səh. 7



## "Müasir əczaçılıqda İbn-Sinadan üzü bəri bütün təcrübələrdən istifadə olunur"

*Professor Eldar Qarayev: Gənclərin enerji içkilərinə marağı gələcəkdə böyük fəsadlara gətirib çıxara bilər*

səh. 4

# Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb

## Prezident İlham Əliyev Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman imzalayıb

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman imzalayıb.**

**Fərmanda deyilir:**

"Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

- Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

**- Bakı iqtisadi rayonu** (Bakı şəhəri);

**- Naxçıvan iqtisadi rayonu** (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

**- Abşeron-Xızı iqtisadi rayonu** (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

**- Dağlıq Şirvan iqtisadi rayonu** (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

**- Gəncə-Daşkəsən iqtisadi rayonu** (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

**- Qarabağ iqtisadi rayonu** (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

**- Qazax-Tovuz iqtisadi rayonu** (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

**- Quba-Xaçmaz iqtisadi rayonu** (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

**- Lənkəran-Astara iqtisadi rayonu** (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

**- Mərkəzi Aran iqtisadi rayonu** (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

**- Mil-Muğan iqtisadi rayonu** (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

**- Şəki-Zaqatala iqtisadi rayonu** (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

**- Şərqi Zəngəzur iqtisadi rayonu** (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

**- Şirvan-Salyan iqtisadi rayonu** (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin".

# Uğurlarınız başucalığımızdır!

## Rektor, professor Gəray Gəraybəyli ATU-da təhsilini başa vuran tələbələri təbrik edib



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli universitetimizdə təhsilini başa vuran tələbələri təbrik edib. Təbrikdə deyilir:**

**Əziz məzunlarımız!**

Ölkəmizin ən nüfuzlu və qocaman ali məktəblərindən biri olan Azərbaycan Tibb Universitetində təhsilinizi uğurla başa vurmağınız münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm!

İllər öncə siz universitetimizin qapısından tələbə kimi daxil olanda, həyatınızın mühüm bir mərhələsinə qədəm qoymağın həyəcanını yaşayırdınız. İndi isə artıq özünə inamlı, yüksək ixtisaslı peşəkar kadrlar, insanlara yardım etməyə tələsən həkimlər qismində buranı tərk edirsiniz. Elmin yolu asan deyil. Təbii ki, bu illər ərzində çətinlikləriniz də olub. Amma bütün çətinlikləri arxada qoyaraq, təhsilinizi uğurla başa vurmağı bacardınız. Sizin üçün Alma-mater olan bu binanın divarları arasında gələcək həyatınız, peşə fəaliyyətiniz baxımından çox önəmli olan bilik və bacarıqları, imkanları qazanmısınız. Bu müddət ərzində siz bilikli və təcrübəli müəllimlərimizdən, Azərbaycanın tanınmış elm adamlarından, eləcə də dünyaca məşhur professorlardan dərs almısınız. Ən əhəmiyyətli məqamlardan biri də odur ki, universitet illərində təkcə bilik yox, əminəm ki, həm də ömürlük dostlar qazanmısınız.

Azərbaycan Tibb Universitetinin rəhbərliyi sizin yüksək səviyyəli tibb təhsili almağınıza yanaşı, tələbəlik illərinizin zəngin, yaddaqalan keçməsi üçün də əlindən gələni əsirgəməyib. Sizi dinləmişik, hər an yardım etməyə hazır olmuşuq, problemlərinizin öhdəsindən birlikdə gəlməyə çalışmışıq.

Təəssüflə qeyd etməliyəm ki, təhsil müddətinizin bir hissəsi bütün dünya üçün ağrı-acılı olan bir dövrə təsadüf etdi. Artıq bir il yarımdır ki, COVID-19 pandemiyası Azərbaycan da daxil olmaqla, bütün dünyanı bürüyüb. Onlayn təhsil sisteminə keçid hamımız üçün asan olmadı. Ancaq biz bu texnoloji yeniliyi də mənimsəməyi bacardıq. Eyni zamanda, pandemiya cəmiyyətin təcrübəli, savadlı tibb kadrlarına nə qədər böyük ehtiyacının olduğunu bir daha göstərdi. Fəxrlə qeyd etməliyəm ki, bu ağır dövrdə universitetimizin tələbələri məsuliyyətli davranışları ilə bütün cəmiyyətə örnək oldular. Tələbələrimiz və məzunlarımız həm vəzifə borcunu yerinə yetirərək, həm də bir çox hallarda könüllü olaraq koronavirusla mübarizəyə qoşuldular, xəstələrin müalicəsində aktiv iştirak etdilər. Onlar koronavirusa qarşı dövlət səviyyəsində aparılan mübarizəyə böyük töhfə verdilər.

Həkimlərimiz, eləcə də digər əməkdaşlarımız Azərbaycanın müstəqillik həyatında ən möhtəşəm, ən əlamətdar bir hadisədə - 44 günlük Vətən müharibəsində də özlərini şərəflə göstərməyi bacardılar. Tələbə və məzunlarımız könüllü olaraq cəbhəyə yollandılar. Həm döyüşdülər, həm də yaralı hərbçilərimizə zəruri yardım göstərdilər, bir çox hallarda insan həyatını xilas etdilər. Torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimiz arasında ATU-nun məzunları da var. Biz qəhrəmanlarımızın ruhu qarşısında baş əyirik. Onları hər zaman fəxr və qürurla xatırlayacağıq.

**Əziz həmkarlarım!**

90 illik zəngin və şərəfli yol keçmiş Azərbaycan Tibb Universiteti ölkəmizdə və dünyada tibb elminin inkişafı, peşəkar kadrların yetişdirilməsi və insanların sağlamlığının qorunması işinə böyük töhfələr verib. Universitetimizdə bu müqəddəs peşənin sirlərinə yiyələnən məzunlarımız Azərbaycanın və dünyanın demək olar ki, hər yerində çalışıblar və indi də çalışırlar. O cümlədən dəfələrlə beynəlxalq səviyyədə keçirilən müxtəlif müsabiqələrin qalibi olublar, elmi uğurlara imza atıblar, hər yerdə adımızı yüksəklərə qaldırıblar. İnanıram ki, sizlər bu siyahını daha da genişləndirəcəksiniz.

İndi sizin qarşınızda geniş perspektivlər açılır. Bəzileriniz təhsili davam etdirəcək, bəzileriniz elmi araşdırmalara baş vuracaqsınız. Yəqin ki, dərhal işə başlayaraq insanların sağlamlığını qorumaq kimi şərəfli peşəni praktikada tətbiq edənləriniz də olacaq. Hər yerdə hər biriniz ATU-nu təmsil edəcək, universitetimizin siması olacaqsınız.

Hansı yolu seçirsinizsə-seçin, əsas odur ki, həmişə doğru qərarlar verin, həyatda düzgün addımlamağa çalışın. Daim məqsədyönlü və özünəinamlı olun, əldə etdiklərinizlə kifayətlənməyərək öyrənməyə, təcrübə qazanmağa davam edin. Müasir dövrün təqdim etdiyi üstünlüklərdən, texnoloji yeniliklərdən faydalanın. ATU-nun təcrübəli müəllimlərinin rəhbərliyi altında yetişən yüksək ixtisaslı həkim və elmi-pedaqoji kadrlar olaraq öz biliklərinizi tibb elmimizin, səhiyyəmizin daha da inkişaf etməsinə yönəldin.

**Əziz məzunlarımız!**

Bildiyiniz kimi, ATU həm də Azərbaycanda ən çox xarici tələbənin təhsil aldığı universitetdir. Dünyanın müxtəlif ölkələrindən olan tələbələrimiz Azərbaycandan həm yüksək tibbi təhsil, həm də xoş təəssüratlarla öz vətənlərinə dönəcək, əldə etdikləri biliklərlə insanların sağlamlığının keşiyində dayanacaqlar.

İnanıram ki, hər biriniz tələbəlik dövrünü daim gözəl hisslərlə xatırlayacaq, xoş duyğularla yada salacaqsınız. Əminəm ki, ümidlərimizi, gözləntilərimizi doğruldacaqsınız və Azərbaycan Tibb Universitetinin məzunu olmağınızla hər zaman fəxr edəcəksiniz!

Sizinlə vidalaşmırıq. İstər təlim-tədris, istərsə də həkimlik fəaliyyəti ilə əlaqədar olaraq, biz yenə tez-tez görüşəcəyik. ATU-nun qapıları isə bir ata ocağı kimi daim üzünüzə açıq olacaq.

Bir daha hər birinizi Azərbaycan Tibb Universitetində təhsili başa vurmağınız münasibətilə səmimi qəlbdən təbrik edir, sizə gələcək həyatınızda uğurlar arzulayıram!

# Dövlət Attestasiya komissiyalarının sədrləri hesabat verib

## Pandemiya və postmüharibə dövründə təşkil olunmasına baxmayaraq, imtahanlar zamanı neqativ hallara rast gəlinməyib

**Azərbaycan Tibb Universitetində 2020/2021-ci tədris ilinin sonuncu Böyük Elmi Şurasının iclası keçirilib. Onlayn formatda təşkil olunan tədbiri açıq elan edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirib ki, 2020/2021-ci tədris ili üzrə Dövlət Attestasiya komissiyaları bu günlərdə öz işlərini başa çatdırıb. Buraxılış dövlət imtahanları mövcud Əsasnaməyə uyğun olaraq keçirilib və qaydalara tam əməl edilib. Buraxılış Dövlət Attestasiya komissiyalarının işlərinin nəticələri haqqında hesabat vermək üçün Səhiyyə Nazirliyinin təsdiq etdiyi Dövlət Attestasiya komissiyalarının sədrləri və üzvləri Elmi Şuraya dəvət olunublar.**



Sonra iclasda Azərbaycan Tibb Universiteti üzrə 2020/2021-ci tədris ilində Dövlət Attestasiya komissiyaları sədrlərinin hesabatı dinlənilib. Gənc mütəxəssislərin hazırlığı işinin yaxşılaşdırılmasında universitet kollektivinin vəzifələri müzakirə olunub.

I Müalicə-profilaktika fakültəsinin Buraxılış Dövlət Attestasiya Komissiyasının sədri, Elmi-Tədqiqat Mamalıq-Ginekologiya İnstitutunun direktor müavini, t.e.d., professor Aytən Məmmədbəyli, II Müalicə-profilaktika fakültəsinin Buraxılış Dövlət Attestasiya Komissiyasının sədri, Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, t.e.d., professor İlqar Qasımov, Stomatologiya fakültəsi üzrə Buraxılış Dövlət Attestasiya Komissiyasının sədri, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, t.ü.f.d. Lalə Quliyeva, İctimai səhiyyə fakültəsi üzrə Buraxılış Dövlət Attestasiya Komissiyasının sədri, Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun İnsan helmintozları və bağırsaq protozoozları laboratoriyasının müdiri, t.ü.e.d. Akif Salehov, Əczaçılıq fakültəsində bakalavr mərhələsi üzrə Dövlət Attestasiya Komissiyasının sədri, "İnnovasiya və Təchizat Mərkəzi"nin publik hüquqi şəxsi – baş direktorun müavini, b.ü.f.d. Rüstəm Rüstəmbəyov buraxılış dövlət imtahanları haqqında ətraflı məlumatlar veriblər.

Hərbi tibb fakültəsi üzrə Buraxılış Dövlət Attestasiya Komissiyasının sədri, Baş Qərargah rəisinin müavini, Döyüş hazırlığı və hərbi təhsil Baş İdarəsinin rəisi, general-mayor Ənvər Əfəndiyev üzrlü səbəbdən iclasda iştirak etmədiyi üçün dövlət imtahanı haqqında Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov çıxış edib.

Komissiya sədrləri hesabat məruzələrində qeyd ediblər ki, bir sıra ixtisaslar üzrə Əczaçılıq fakültəsində buraxılış işinin müdafiəsi, I və II Müalicə-profilaktika, İctimai səhiyyə, Stomatologiya və Hərbi tibb fakültələrində Yekun Dövlət Attestasiyası mövcud Əsasnamə qaydalarına uyğun aparılıb. Bu qaydalar fakültə şuralarında, universitetin Böyük Elmi Şurasının iclasında təsdiq olunub.

Komissiya sədrləri bildiriblər ki, bu il buraxılış imtahanları pandemiya və Vətən müharibəsindən sonrakı dövrə düşsə də, əvvəlki illərdə olduğu kimi, yüksək səviyyədə baş tutub və tələbələr obyektivlik şəraitində yüksək bilik nümayiş etdiriblər. İmtahanların yüksək səviyyədə təşkil edilməsinə görə universitet rəhbərliyinə, xüsusilə rektor Gəray Gəraybəyliyə minnətdarlıq edən komissiya sədrləri, eyni zamanda fakültə dekanlarının bu prosesdəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Onlar imtahanlar zamanı heç bir narazılığın baş vermədiyini diqqətə çatdırıblar və gələcəkdə bu prosesin daha da mütəşəkkil həyata keçirilməsi üçün öz təklif və rəylərini dilə gətiriblər.

Hesabat çıxışlarına yekun vuran universitetin rektoru, professor Gəray Gəraybəyli komissiya sədrlərinə imtahanları uğurla başa çatdırdıqları üçün dərin təşəkkürünü bildirib: "Həqiqətən də komissiya sədrlərinin dediyi kimi, builki dövlət buraxılış imtahanları dünyanı ağuşuna alan qorxulu pandemiya və sonra da 44 günlük Vətən müharibəsi dövrünə təsadüf etsə də, yüksək səviyyədə həyata keçirildi. Məhz bunun nəticəsidir ki, imtahan zamanı neqativ hallara rast gəlinmədi".

Sonra universitetin Tədris hissə müdiri, dosent Samir Cavadovun təqdim etdiyi 2021/2022-ci tədris ili üzrə tədris planı və ATU-nun Elmi katibi, professor Nazim Pənahovun təqdim etdiyi 2021/2022-ci il üzrə iş planının təsdiqi haqqında sənədlər toplantı iştirakçılarının diqqətinə çatdırılıb. Hər iki plan şura üzvləri tərəfindən təsdiqlənib.

Daha sonra gündəlikdə duran müxtəlif məsələlər müzakirə olunub. 2021/2022-ci tədris ilindən etibarən "Qidalanma və kommunal gigiyena" kafedrasının adının dəyişdirilərək "Qidalanma və tibbi gigiyena" adlandırılması şura üzvləri tərəfindən səsə qoyularaq təsdiq edilib. Bundan başqa, Böyük Elmi Şura ATU-da təhsil almaq üçün müraciət edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hazırlıq kursu keçmədən universitetin I kursuna qəbul olunmasına və 2020/2021-ci tədris ilində ATU-da təhsil almaq üçün müraciət edən əcnəbi və vətəndaşlığı olmayan hazırlıq kurs tələbələrinin final imtahanı keçirilmədən nəticələrinin məqbul hesab edilməsinə razılıq verib. Eləcə də Rezidentura həkim-mütəxəssis hazırlığı aparılan bəzi ixtisasların təhsil proqramları təsdiqlənib.




Böyük Elmi Şura elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçilərini, həmçinin elmlər doktoru işində dissertasiya mövzusunun, işlərinin adının və elmi məsləhətçisinin dəyişdirilməsini, eləcə də dərslik, dərs vəsaitləri və metodik vəsaitləri təsdiqləməklə öz işini başa çatdırıb.

Sonda universitetin rektoru, professor Gəray Gəraybəyli 2020/2021-ci tədris ilini başa vuran ATU-nun professor-müəllim heyətinə, o cümlədən bütün kollektivə mənalı istirahət arzulayıb.

**M.ƏLƏKBƏRLİ**

# "Əməkdaşlığımızı elmi istiqamətdə genişləndirmək üçün yaxşı potensial var"

## ATU-nun rektoru Türkiyənin Selçuk Universitetinin nümayəndə heyətini qəbul edib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Türkiyənin Selçuk Universitetinin nümayəndə heyətini qəbul edib.**



Rektor ATU-nun son illər ərzində beynəlxalq əlaqələrinin genişlənməsi haqda məlumat verərək, xüsusilə qardaş ölkə Türkiyənin bir çox universitetləri ilə müxtəlif ikitərəfli memorandumlar imzalandığını bildirib: "Bu il bir neçə Türkiyə universitetinin nümayəndə heyətləri, rəhbərləri qonağımız olub. Sevindirici haldır ki, imzalanan müqavilələr əsasında sürətlə işlər gedir. Selçuk Universiteti ilə də sıx əməkdaşlıq əlaqəmiz var. Bizdə yeni açılan ixtisaslar üzrə təhsil alan tələbələrimiz üçün göndərdiyiniz dərsliklərdən istifadə edirik. Eləcə də kitabxanamızda xüsusi guşə yaradılıb".

Gəray Gəraybəyli qeyd edib ki, hazırki əməkdaşlığın gələcəkdə elmi istiqamətdə də davam etməsi üçün yaxşı potensial var: "Bildiyiniz kimi, günümüzdə elmi işlərin klinik araşdırmaları olur və bunu bir deyil, bəzən bir neçə ölkə çərçivəsində həyata keçirmək lazım gəlir. Bu baxımdan universitetimizin çox geniş imkanları var. Belə ki, 6 fakültəmiz, 4 klinikamız - Onkoloji, Tədris Stomatoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarımız fəaliyyət göstərir. Universitetin ərazisi demək olar ki, kampus formatındadır, yeni infrastruktur əlverişlidir".

Selçuk Universiteti rektorunun köməkçisi, xarici tələbələr üzrə koordinator, professor İlhan Çiftçi qəbula görə minnətdarlığını bildirərək, qarşılıqlı əlaqələrin hər iki tərəf üçün faydalı olduğunu və gələcəkdə daha da genişləndirilməsinin zəruriliyi fikri ilə razılaşdığını vurğulayıb.

Görüşdə Selçuk Universiteti Kommunikasiya fakültəsinin dekanının müavini, dosent Abdulkadir Gölcü, ATU-nun ümumi işlər üzrə prorektoru Tahir Vəliyev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov iştirak ediblər.

# Aşqarlar Kimyası İnstitutu ilə birgə tədqiqatlar aparacağıq

**AMEA-nın akademik Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu (AKİ) ilə Azərbaycan Tibb Universiteti arasında birgə əməkdaşlıq üzrə müqavilə imzalanıb.**

AKİ-nin baş direktoru, akademik Vaqif Fərzəliyev və ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən imzalanmış əməkdaşlıq müqaviləsində müştərək elmi-tədqiqat işlərinin aparılması, doktorantların birgə yetişdirilməsi, elmi konfransların və vebinarların qarşılıqlı təşkili və s. məsələlər öz əksini tapıb.

Qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmək üçün iyunun 24-də Aşqarlar Kimyası İnstitutunda keçirilən tədbirdə çıxış edən akademik Vaqif Fərzəliyev bildirib ki, bioloji fəallığa malik maddələrin sintezi və funksional xassələrinin əczaçılıq istiqamətində tədqiqi ATU-nun Ümumi və toksikoloji kimya kafedrası ilə əməkdaşlıq çərçivəsində birgə aparılacaq. V.Fərzəliyev qeyd edib ki, elm və təhsil müəssisələrinin əməkdaşlıq etməsi hər iki tərəf üçün əhəmiyyətlidir və alınan nəticələr respublikamızda elmin inkişafına xidmət edəcək.

Sonra ATU-nun Ümumi və toksikoloji kimya kafedrasının müdiri, əczaçılıq üzrə elmlər doktoru, professor Eldar Qarayev rəhbərlik etdiyi kafedrada aparılan elmi tədqiqatlar haqqında tədbir iştirakçılarını məlumatlandırıb. O öz çıxışında qeyd edib ki, ATU-nun Ümumi və toksikoloji kimya kafedrasında bitki xammallarından alınan təbii birləşmələrin kompyuter modelləşdirmə üsulu olan in siliko təcrübələri, AKİ ilə birgə onların kimyəvi molifikasiyası istiqamətində elmi işlərin aparılması mühüm elmi nəticələrə gətirib çıxaracaq, bu nəticələrin müxtəlif beynəlxalq konfrans və simpoziumlarda məruzə edilməsi, yüksək impakt faktorlu xarici jurnallarda nəşr edilməsi hər iki tərəfə böyük fayda verəcək.

Daha sonra həmin kafedranın professoru, kimya elmləri doktoru Fikrət Quliyev birgə əməkdaşlığın tibb, əczaçılıq və kimyanın müxtəlif sahələri üzrə tələbə və magistrantların qarşılıqlı təcrübə keçmələrinə, hər iki müəssisənin yüksək ixtisaslı kadrlarla təminatına fayda verəcəyini qeyd edib.





# Tələbəmiz ümumrespublika yaradıcılıq festivalında 3-cü yerə layiq görülüb

**Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinin tələbəsi Aliyə Şahbazova "Tələbə Baharı" XV Ümumrespublika tələbə yaradıcılıq festivalında pop janrında ifa etdiyi musiqiyə görə 3-cü yerə layiq görülüb.**

2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı rəhbər tutularaq keçirilən festivalın məqsədi Nizami Gəncəvi yaradıcılığını gənc nəsil arasında daha dərindən təbliğ etmək, eyni zamanda istedadlı gəncləri üzə çıxararaq onlara dövlət dəstəyi verməkdir.

Mükafatlandırma mərasimində Gənclər və idman nazirinin müavini İntiqam Babayev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev, millət vəkilləri Müşfiq Cəfərov və Vüqar İsgəndərov, Azərbaycan Tələbə Gənclər İttifaqının sədri Pərviz Mirələmli iştirak ediblər.

Daha sonra ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov və ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elvin Kərimli Aliyə Şahbazovanı təbrik edib, uğurlar arzu ediblər. Görüşdə prorektor Z.Musabəyov qalibə rektorun təbriklərini çatdırıb: "Sizin gələcəkdə yüksək ixtisaslı kadr, milli ruhlu, sağlam və müasir düşüncəli, vətənpərvər, cəmiyyətdə öz layiqli yerini tutan bir vətəndaş olmağınızı arzu edirik".

Qeyd edək ki, A.Şahbazova I Müalicə-profilaktika fakültəsinin tələbəsidir.

# ATU-nun məzunu Almaniyada ən gənc titullu həkim olub

**Azərbaycan Tibb Universitetinin məzunları dünyanın bir çox ölkələrində müxtəlif ixtisaslar üzrə işləyir, həm tibbi praktika, həm də elm sahəsində nailiyyət qazanırlar. Onlardan biri – ginekoloq Elvin Piriyev bu günlərdə nüfuzlu beynəlxalq mükafata layiq görülüb.**


SPORT IN KÖLN

Südstadion

gegen Kiel zweiten Heimsieg

...e Crocodiles peilen gegen die Kiel Baltic ...s im zweiten Heimspiel den zweiten ...an. Foto: Nadine Bartz

...son zählt aktuell zu den stärksten der Liga und stellt jede Defensive vor Probleme. Zudem stimmen Moral und Trainingsleistungen. Alle geben Gas."

Um 15 Uhr ist Kickoff im Südstadion. Die German Football League (GFL) überträgt das Spiel per Livestream unter **https://live.gfl.info/**

*Wegweisend und innovativ*

*Hans-Joachim-Lindemann–Preis für Dr. Elvin Piriyev*

**Lindenthal (red).** Der Kölner Gynäkologe Dr. med. Elvin Piriyev (r.), hier mit Chefarzt Dr. Thomas Römer, ist Oberarzt für Gynäkologie und Geburtshilfe am EVK Weyertal und wurde für seine Dissertation mit dem Hans-Joachim-Lindemann-Preis 2021 ausgezeichnet. Das Thema seiner wissenschaftlichen Arbeit lautet „Vergleich von Aspirationspipetten und Hysteroskopie mit Kürettage bei der Diagnose von Blutungsstörungen und/oder sonografisch auffälligem Endometrium bei Patientinnen in der Prä-, Peri- und Postmenopause". Der Hans-Joachim-Lindemann-Preis wird vergeben für innovative klinische und experimentelle Arbeiten im Bereich der gynäkologischen Endoskopie. Foto: Anja Pahl/EVK Köln Weyertal

Hazırda Almaniyada işləyən, 2-ci dərəcəli mini invaziv cərrah adına layiq görülən E. Piriyev Almaniyanın AGE (Arbeitsgemeinschaft Gynäkologische Endoskopie) endoskopik cəmiyyətinin mükafatını qazanıb. Bu haqda "Kölner Wochenspiegel" qəzetində məlumat da dərc olunub.

E.Piriyevin sözlərinə görə, AGE cəmiyyəti ginekoloji endoskopiya sahəsində hər il 3 mükafat təsis edir. Onun təqdim etdiyi elmi iş bu il 3 ən yaxşı tədqiqatdan biri kimi mükafata layiq görülüb: "6 elmi məqaləm beynəlxalq jurnallarda dərc olunub. Məqalələrdən biri almandilli jurnalda çap edilib. Bir müddət əvvəl Almaniyanın ginekoloji endoskopik cəmiyyəti tərəfindən MIC-II (2-ci dərəcəli mini invaziv cərrah) adına layiq görüldüm və ölkədə bu titulu qazanmış ən gənc həkim oldum".

E.Piriyev 2012-ci ildə ATU-dan məzun olduqdan sonra DAAD və Səhiyyə Nazirliyinin birgə təşkil etdiyi layihənin təqaüdünü qazanaraq Almaniyaya yollanıb. 2018-ci ildə uzman doktor (facharzt) səviyyəsinə qalxıb. Sonradan tibb üzrə fəlsəfə doktoru adını da qazanıb. İndi isə Witten/Herdecke Universitetində tibb doktoru adını almaq üçün tədqiqatlara başlayıb. E. Piriyev həm də Almaniya-Azərbaycan ginekoloji cəmiyyətini təmsil edir.

# "Müasir əczaçılıqda İbn-Sinadan üzü bəri bütün təcrübələrdən istifadə olunur"

## Professor Eldar Qarayev: Gənclərin enerji içkilərinə marağı gələcəkdə böyük fəsadlara gətirib çıxara bilər

**Müsahibimiz ATU-nun Ümumi və toksikoloji kimya kafedrasının müdiri, professor Eldar Qarayevdir.**

**- Eldar müəllim, Azərbaycanda əczaçılığın inkişafı dünyada bu sahədə gedən proseslərlə ayaqlaşırmı?**

- Son illər dünyada tibbə və əczaçılığa xüsusi diqqət göstərilir. Artıq bütün sahələrdə olduğu kimi, əczaçılıqda da bəlli istiqamətlər var. Müasir əczaçılığın Azərbaycanda inkişafı dünyada gedən proseslərlə birbaşa əlaqədardır. Əgər əvvəl həkim həm dərmanı hazırlayır, həm təyin edir, həm də xəstəyə verirdisə, indi ancaq dərmanın təyinatı ilə məşğuldur. Dərmanın hazırlanması, tapılması, təbii və sintetik, yarımsintetik törəmələrin alınması və analizi ilə sırf əczaçılar məşğul olur. Müasir əczaçılıqda İbn-Sinadan üzü bəri bütün təcrübələrdən, xalq təbabətindən istifadə olunur. Lakin bu təcrübələrin müasir səviyyədə öyrənilməsi həyata keçirilir.

Dərman vasitələrinin 40 faizini bitki mənşəli təbii birləşmələr təşkil edir. Bitki mənşəli maddələr həm toksikoloji, həm də müalicəvi xüsusiyyətə malik ola bilər. Lakin əhali arasında belə bir fikir formalaşıb ki, təbii birləşmələrin yan təsiri, toksik təsiri yoxdur. Əslində isə belə deyil. Hətta araşdırında məlum olur ki, qədim zamanlardan tanınan ən güclü zəhərlərin çoxu təbii mənşəlidir. Sintetik mənşəli zəhərlərə isə 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərindən rast gəlinir. Bu da toksikoloji kimyanın inkişafına təkan verdi. Məsələn, alkaloidlər bitki mənşəlidir, yüksək bioloji fəallığa malikdir və sayları 20 mini ötüb. Lakin tibb təcrübəsində cəmi 80-100 alkaloid tərkibli dərman vasitəsi var. Digərləri yüksək bioloji fəallığa malik olsalar da, istifadə etmək üçün toksik testlərdən keçmirlər. Buna baxmayaraq, onların kimyəvi quruluşunda bir qədər dəyişiklik etməklə toksik hissəsini qapatmaq, müalicəvi effektini isə artırmaq olur. Tibbin inkişafının nəticəsidir ki, bugünkü pandemiya 50 milyon insanın ölümü ilə nəticələnən "ispanka"dan qat-qat aşağı nəticəli oldu. Bu baxımdan sonrakı pandemiyaların da daha az patoloji təsirə malik olacağı gözlənilir. Hazırda əczaçılıqda in siliko adlandırılan kompyuter proqramlaşdırması ilə yeni dərman vasitələrinin yaradılması, məlum dərmanların yeni müalicəvi cəhətlərinin müəyyən edilməsi istiqamətində geniş işlər gedir.

**- Universitetimizdə əczaçı kadrların hazırlanması necə həyata keçirilir? Nəticələr sizi qane edirmi?**

- Ölkəmizdə əczaçı kadrlar üçün baza təhsilini yalnız Azərbaycan Tibb Universiteti verir. Tədris proqramlarımızın hamısını dünyanın inkişaf etmiş universitetlərinin proqramlarına uyğunlaşdırırıq ki, bu da istiqamətləri müəyyənləşdirməyi asanlaşdırır. Təhsilin kompyuterləşdirilməsi də kadr hazırlığına öz müsbət təsirini göstərir. Tələbələr imtahanı test üsulu ilə, insanla birbaşa təmasda olmadan verirlər. Cavablarını da dərhal öyrənirlər. Qapalı testlər var ki, tələbə onları ancaq imtahanda görür və cavabını araşdırmağa çalışır. Keçən ildən test suallarına situasiya məsələlərini də salmışıq. Bu da əczaçılıq sahəsindəki bilikləri tətbiq etmək bacarığı formalaşdırır. Bəzi çətinliklər də var. Əsas çətinlik yüksək texnoloji avadanlıqlarla əlaqədardır. Xarici ölkələrin müəssisələri və yerli müəssisələrlə sıx əməkdaşlıq edirik. AMEA-nın Aşqarlar Kimyası İnstitutu, həmçinin Polimer Materialları İnstitutu ilə də müqavilə bağlamışıq. Müştərək işlər görür, birlikdə elmi məqalələr, doktorantlar hazırlayırıq. Bununla yanaşı, Fransa universitetləri ilə əlaqələrimiz genişlənir. Onlarda təchizat çox yüksəkdir. Bizə Nüvə Maqnit Rezonansı cihazı da daxil olmaqla, ən bahalı avadanlıqlardan istifadə imkanı yaradırlar. Təbii xammallardan alınan maddələri onlara göndəririk. Spektrlərini çəkib yenidən özümüzə qaytarırlar. Ukrayna müəssisələri ilə də müqaviləmiz var. Müştərək işlər daha çox effekt verir. Moskva Dövlət Universitetinin kimya laboratoriyası ilə əlaqələrimiz nəticəsində Azərbaycan florasından olan bitkilərin aminturşu tərkibi tədqiq olunur.

Əczaçılarımızı yetişdirərkən onların yalnız aptekdə satıcı kimi işləməsini nəzərdə tutmuruq. Əczaçı kadrlarını qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Fransada və digər inkişaf etmiş ölkələrdə təcrübə keçməsinə xüsusi önəm veririk. Bu məsələlərdə koordinatorumuz öz yetirməmiz, Fransanın Eks-Marsel Universitetinin müəllimi Elnur Qarayevdir. Keçən il Əczaçılıq kimyası kafedrasının doktorantı Aytəkin xanım iki dəfə Fransada təcrübə keçdi. Digər doktorantımız Adilə Vəliyeva 5 ay Macarıstanda oldu. Macar alimlərlə əməkdaşlıq nəticəsində yeni avadanlıqlar üzərində öyrəndiklərini ölkəmizdə tətbiq edəcək. Töhfə Nəsibova da bir neçə ay Türkiyədə təcrübə keçib və yenə bir neçə aylıq proqram çərçivəsində Macarıstana getməsi planlaşdırılır. İlkin Nəsirlinin bu ilin sentyabr ayından Fransaya 6 aylıq ezamiyyəti nəzərdə tutulur. Doktorantlarımızdan Nərmin Babayeva, Aytən Şükürova, Nigar Paşayeva, Aydan Qədimli, Çingiz Şükürov və başqaları da xaricdə böyük həvəslə təcrübə keçiblər. Hər birinin uğuru bizi sevindirir. Beynəlxalq konfranslarda olarkən, tələbələrimiz haqqında eşitdiyimiz xoş sözlərdən qürur duyuruq.

**- Bitkilərdən yeri gəldi-gəlmədi dərman kimi istifadə olunmasına münasibətinizi bilmək maraqlıdır.**

- Sosial şəbəkələrin, internet resurslarının genişlənməsi yeni "türkəçarə mütəxəssisləri"nin ortaya çıxmasına səbəb olur. Təəssüf ki, insanlar da onlara inanır, təyin etdikləri "resept"lərdən yararlanırlar. Çünki belə şəxslər özlərini yaxşı reklam etməyi bacarırlar. Bəzən bitkilərin tərkibində elə maddələrə rast gəlinir ki, türkəçarədə istifadəsi təhlükəlidir. Kiçik bir səhv acı nəticələrə gətirib çıxara bilər. İnsanların o maddələr haqqında bilgiləri zəifdir, düşünürlər ki, bitki tərkibli olduğu üçün heç ziyanı yoxdur. Halbuki, çox vaxt düzgün dəmləmirlər, düzgün dozalandırmırlar. İlk istifadədə nəzərəçarpacaq zəhərlənmə baş verməsə də, fəsadları sonralar özünü göstərir.

**- Son dövrlər ölkəmizdə də populyarlaşan və xüsusilə də gənclərin daha çox istifadə etdiyi enerji içkiləri haqqında nə deyərdiniz?**

- Enerji içkisi süni surətdə insanın enerjisini toplamağı təmin edir. Dopinqin bir növüdür. Çox zərərlidir. Niyə biz təbii içkiləri qoyub, enerji içkilərinə üstünlük verməliyik? Təbii meyvə şirələri qəbul etmək daha faydalıdır. Respublikamızın təbiəti gözəldir, torpağı münbitdir. Ərik, şaftalı şirələri əzələləri möhkəmləndirir. Dünyada məşhur olan narımızın təbii şirəsindən, göz yaşı kimi dumduru bulaq sularımızdan içməyi məsləhət görərdim. Enerji içkisinə isə sintetik kofein və başqa maddələr əlavə olunur. Bu içki insan orqanizmini birdən-birə oyandırır, yuxunu qaçırır, müvəqqəti müsbət əhval-ruhiyyə yaradır. Britaniyada məktəbə yaxın yerlərdə belə içkilərin satışı qadağandır. Bu içkilərin Azərbaycanda geniş reklam olunması, satılması, xüsusilə də gənclər tərəfindən qəbul edilməsi gələcəkdə böyük fəsadlara gətirib çıxara bilər.

Sosial şəbəkələrin, internet resurslarının genişlənməsi yeni "türkəçarə mütəxəssisləri"nin ortaya çıxmasına səbəb olur. Təəssüf ki, insanlar da onlara inanır, təyin etdikləri "resept"lərdən yararlanırlar. Bəzən bitkilərin tərkibində elə maddələrə rast gəlinir ki, türkəçarədə istifadəsi təhlükəlidir. Kiçik bir səhv acı nəticələrə gətirib çıxara bilər. İnsanların o maddələr haqqında bilgiləri zəifdir, düşünürlər ki, bitki tərkibli olduğu üçün heç bir ziyanı yoxdur.



**Arif MƏMMƏDLİ**

# Gəldilər, gördülər, sevdilər

## Əcnəbi tələbələr Azərbaycan Tibb Universitetindəki təhsilin səviyyəsindən və mühitdən razıdırlar

**Azərbaycan Tibb Universiteti ölkəmizdə ən çox əcnəbi tələbənin təhsil aldığı ali məktəbdir. İldən-ilə dünyanın, o cümlədən də Avropanın bir sıra ölkələrindən ATU-ya üz tutanların sayı artır. Sevindirici haldır ki, təhsilin keyfiyyəti və səviyyəsinə görə universitetimizin beynəlxalq reytinqi də yüksəlməkdədir. Əcnəbi tələbələrimizin universitetimiz, müəllimlər, təhsilin səviyyəsi və digər məsələlərlə bağlı münasibətini öyrəndik.**

**Dilarə Baş**
**(Türkiyə vətəndaşı, I Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi)**



— Uşaq yaşlarımdan həkim olmaq istəmişəm. Türkiyədə liseyi bitirdikdən sonra cəhd etdim ki, tibb fakültəsinə daxil olum. Amma balım çatmadı. Bizim bir ailə dostumuz var. Onun qızı Azərbaycan Tibb Universitetində oxuyurdu. Tövsiyə etdilər ki, mən də tibb təhsilimi Azərbaycanda alım. Ailəmiz ilə birgə ölçdük-biçdik, burada oxumağıma qərar verdik. 6 ildir Tibb Universitetində təhsil alıram. Bu 6 ildə özümü heç vaxt yad yerdəki kimi hiss etmədim. Bir az ilk vaxtlar çətinliyim oldu, ətraf mühitə öyrəşənə qədər. İndi isə Bakı, müəllimlərim, rəfiqələrim – hamısı mənə doğmadır. Elə öyrəşmişəm ki, Azərbaycandan getmək istəmirəm. Burada qalıb işləmək istəyirəm. Oxuduğum illər ərzində ATU-nun Tədris Cərrahiyyə Klinikasında, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində təcrübə keçdim. Bütün müəllimlərimi, xüsusilə Azərbaycan dili fənnini tədris edən Yeganə müəlliməni çox sevdim. Çünki məni Azərbaycan dilinə alışdıran Yeganə müəllimə oldu. O mənə motivasiya verdi. Təhsilimi Bakıda davam etdirmək niyyətindəyəm. Azərbaycan mənim üçün olduqca rahat bir məkandır.

**Zərifə İsmayılova**
**(Rusiya vətəndaşı, I MPF-nin VI kurs tələbəsi)**

— Mən həkim ailəsində anadan olmuşam. Atam Toğrul İsmayılov stomatoloqdur, anam İlhamə İsmayılova isə ATU-nun Pediatriya fakültəsini bitirib. Anam Rusiyada tanınmış xəstəxanaların birində çalışır, USM üzrə sayılıb-seçilən mütəxəssislərdəndir. Bacım Şeyda İsmayılova da bu il ATU-nun II Müalicə-profilaktika fakültəsini bitirir. Bizdə peşə seçimində məcburiyyət olmayıb, həkimliyə sevgim anamdan irəli gəlir. Uşaq vaxtı anam evdə olmayanda onun ağ xalatını geyinib, şprislərini gizlicə götürüb, gəlinciklərimə o qədər iynə vurmuşam ki.



Anama bənzəmək istəmişəm. Özüm Mingəçevirdə anadan olsam da, ailəmiz Rusiyada yaşadığından, mən də ailəm ilə birlikdə olmuşam. Rusiyada N.İ.Piroqov adına Rusiya Milli Tədqiqat Tibb Universitetinə daxil olmuş, sonra təhsilimi ATU-da davam etdirmişəm.

Hər iki universitetin özünəməxsus özəlliyi var. Hər ikisində təhsil yüksək səviyyədə tədris olunur. Bəzən tələbə yoldaşlarım deyirlər ki, bizdə praktikaya az yer verilir. Heç də elə deyil. Mən əksini deyərdim. Universitetimizdə kifayət qədər təcrübə keçdik, nəzəriyyəni müəllimlərimiz yüksək səviyyədə bizə öyrətdilər. Universitetimizdə vaxtaşırı islahatlar aparılır. İslahatların nəticəsində müəyyən çatışmazlıqlar aradan qalxır. Hesab edirəm ki, qarşıdakı illərdə universitetimizdə istər tədrisin keyfiyyətində, istərsə də təcrübənin əldə edilməsində əhəmiyyətli dərəcədə təkmilləşdirmə işləri aparılacaq.

Müəllimimiz Vəli Əsmətovun bir sözünü heç vaxt unutmuram: "Tibb Universiteti elm, savad verməklə yanaşı, sizi bir insan və şəxsiyyət kimi də formalaşdıracaq". Həqiqətən, mən bunu özümdə hiss etdim. I kursda oxuyan Zərifə ilə indikinin arasında çox fərq var. Mən burada həkim peşəsinin incəliklərinə yiyələnməklə yanaşı, bir şəxsiyyət kimi də formalaşdım. Universitetdə müəllimlər bizə ata-ana qayğısı ilə yanaşırdılar. Onlardan Qorxmaz Əhmədov, Natiq Bayramov, Kamandar Yaqubov, Elşad Novruzov, İsmayıl Əfəndiyev, Vəli Əsmətov, Həqiqət Qədirova, Akif Qurbanov, Nigar Mikayılova, Aybəniz Qocayeva və başqalarının adlarını çəkə bilərəm. Oxuduğum 11a qrupunun tələbələri bir-birlərinə doğma və əziz olub. Müəllimlərimi və tələbə yoldaşlarımı heç vaxt unutmayacağam. Təhsilimi isə Türkiyədə davam etdirmək niyyətindəyəm.

**Fərid Forigh**
**(Əfqanıstan vətəndaşı, ATU-nun doktorantı)**

— Mən Əfqanıstanın paytaxtı Kabildə fəaliyyət göstərən Ürək-damar Cərrahiyyə Xəstəxanasında çalışıram. Əfqanıstanda dövlət xəstəxanaları təəssüf ki, azdır. Çalışdığım xəstəxana özəl xəstəxanadır. Bizim ölkədə həkim çatışmazlığı hökm sürür. Vətəndaşlar kasıb yaşayırlar.

İllərlə ölkədə gedən müharibə iqtisadiyyata da ağır zərbə vurub. Azərbaycanla Əfqanıstan arasında bağlanmış dövlətlərarası müqaviləyə əsasən mən Tibb Universitetində doktorantura təhsili alıram. Tədris yüksək səviyyədədir. Müəllimlər mənə diqqət göstərir. Klinikalarda təcrübə keçirəm. Xəstəxanalarda da həkimlər mənə hörmətlə yanaşırlar.



Xalqınız olduqca qonaqpərvərdir. Təhsil müddətim başa çatandan sonra Əfqanıstana qayıdıb xalqıma xidmət edəcəyəm.

**Məhəmməd Rza Şeyx Əlizadə Xanqa**
**(İran vətəndaşı, Stomatologiya fakültəsinin I kurs tələbəsi)**

— Ailəmizlə birgə Bakıda yaşayıram. Bacım Məryəm Şeyx Əlizadə Azərbaycanda üzgüçülük üzrə milli komandanı təmsil edir. Dünya çempionudur. Bacım da mənim kimi Tibb Universitetində oxumaq istəyir. Bu səbəbdən ciddi-cəhdlə ATU-ya qəbul olmaq üçün hazırlaşır. Ailəm Bakıda yaşadığı üçün mən də bura gəldim və Azərbaycan Tibb Universitetinin reytinqi ilə maraqlandım. Göstəricilər məni qane etdi. Bu səbəbdən sənədlərimi ATU-ya verdim.



Qəbul olanda çox sevindim. Fəxr edirəm ki, Azərbaycanda təhsil alıram. Təhsilimi bitirəndən sonra Bakıda qalmağı düşünürəm. Müəllimlərim mənə hörmətlə yanaşır. Hər bir sualımı anındaca cavablandırırlar. Bir sözlə, hər şeydən razıyam. Bu bir ildə xeyli dostlar da qazanmışam.

**Milad Abdullahzadə**
**(İran vətəndaşı, Stomatologiya fakültəsinin IV kurs tələbəsi)**



— Təbriz şəhərindənəm. Bu mənim ikinci təhsilimdir. Makina mühəndisliyi ixtisasını bitirmişəm. Azərbaycanda oxumaq könlümdən keçdi. Qəbul üçün Azərbaycan Tibb Universitetini seçdim. Belə bir təhsil ocağında oxumaqdan qürur duyuram. Təhsilin səviyyəsi, müəllim və tələbələrin mənə olan münasibəti olduqca yaxşıdır. Universitetdə sağlam bir mühit var. Hər addımda səmimilik, mehribanlıq hiss edirəm. Azərbaycanın mətbəxi zəngin və dadlıdır. Kababını çox xoşlayıram. Azərbaycanın tarixi məkanları ilə maraqlanıram. Qobustan daşüstü abidələri görmək, oranı ziyarət etmək istərdim.

Dəyərli dostlarla vaxt keçirmək mənim üçün xoşdur. Onlar vasitəsi ilə Azərbaycanın ədəbiyyatı, tarixi, mədəniyyəti ilə bağlı çox şeylər öyrənirəm.

**Bəkir Enes Evdi:**
**(Türkiyə vətəndaşı, I Müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi)**



— Mən imtahanlarımı Türkiyədə verdim və Tibb Universitetində təhsil almaq hüququ qazandım. Oxuduğum müddətdə mənimlə xoş ünsiyyətdə olan müəllimlər və səmimi dostlar əldə etdim. Nə zaman müəllimlərimə hansısa məsələ ilə bağlı müraciət etmişəmsə, zamanında cavab almışam. Üzləşdiyimiz hər bir problem müəllimlərim tərəfindən aradan qaldırılır. İmtahanları müvəffəqiyyətlə vermişəm. Universitetdə öz təşəbbüsümlə "Morethandoc" adlı bir qurum yaratmışam. Təşkilata Azərbaycan, Türkiyə, Yunanıstan, Ukraynadan qatılanlar var. Məqsədimiz ölkələrarası tibb təhsili, müalicə sahəsində işbirliyi qurmaq və təcrübələrdən yararlanmaqdır. Hesab edirəm ki, bu istiqamətdə görəcəyimiz işlər hələ qabaqdadır. .

**Özden Köçer**
**(Türkiyə vətəndaşı, Stomatologiya fakültəsinin I kurs tələbəsi)**

— Mən əslən Azərbaycandanam. Babamgil Gəncə şəhərindən Türkiyəyə köçüblər. Həmişə Azərbaycanla, Gəncə ilə bağlı maraqlı xatirələr danışırdılar. Orta məktəbdə oxuduğum illərdə məndə bir istək baş qaldırmışdı ki, ali məktəbi Azərbaycanda oxuyum. Çox şükür, istəyimə nail oldum. Sənədlərimi Azərbaycan Tibb Universitetinə verdim və qəbul oldum. Bakı çox xoşuma gəlir. Gəncədə qohumlarım var. Pandemiya olduğundan, Gəncəyə gedə bilmədim. Məqsədim Gəncəyə getmək, dahi Nizaminin məqbərəsini, eləcə də öz vətənini işğalçılardan qəhrəmanlıqla qoruyan və şəhid olan Cavad xanın qəbrini ziyarət etməkdir.



Nəsib olsa, təbiətin incisi Maralgölü, Göygölü də görəcəyəm. Mənim üçün baba yurdunda təhsil almaq çox xoşdur. Dostlar qazanmışam. Müəllimlərimizdən çox razıyam. Sıxıntı keçirməyə qoymurlar. Özümü Bakıda yad hiss etmirəm. Hara gedirəmsə, insanlardan həmişə isti münasibət görürəm. Universiteti bitirəndən sonra Azərbaycanda qalmağı planlaşdırıram.

**Hasan Altan**
**(Türkiyə vətəndaşı, I Müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi)**

— Vaxtilə babalarım Stalin repressiyasından yaxa qurtararaq Türkiyəyə pənah aparıblar. İndi mən baba yurdumda təhsil alıram. Özümü olduqca rahat hiss edirəm. Pandemiya dövründə dərslərimiz onlayn qaydada keçirildi. Doğrudur, canlı təmas olmasa da, müəllimlərimizin bizə diqqətlə yanaşdığını hiss etdim. Dərsləri yüksək səviyyədə keçir, bizi düşündürən suallara ətraflı cavab verirdilər. Yəqin pandemiya yaxın zamanlarda aradan qalxacaq, biz də dərsləri ənənəvi qaydada keçəcəyik. O zaman müəllim və tələbə yoldaşlarımla yaxından tanış ola biləcəyəm.

İlk vaxtdan özəl klinikaların birində təcrübə keçdim. Ən böyük qazanclarımdan biri elə o oldu. Azərbaycan gözəldir. Baba yurdunda təhsil almağın ayrı ləzzəti var.



O hissi ifadə etməkdə çətinlik çəkirəm. İllərlə işğalda olan Qarabağımızın Müzəffər Ordumuz tərəfindən azad edilməsi qürurumun üstünə qürur, sevincimin üstünə sevinc gətirdi.

Beləcə, universitetimizə bu dəfə əcnəbi tələbələrin gözü ilə baxdıq. Onların dilindən təhsil ocağımız, müəllimlər, tələbə yoldaşları, eləcə də ölkəmiz və xalqımız barədə xoş sözlər eşitdikcə, biz də qürurlandıq. Əmin olduq ki, onların hər biri vətənlərinə mütəxəssis kimi geri dönəndə, həm də Azərbaycana olan sevgilərini və xoş təəssüratlarını ətraflarındakı insanlarla məmnunluqla bölüşəcəklər.

**Qabil ABDULLAYEV**

# “Duzlu göl”dən istifadə xərçəng xəstəliyinə səbəb ola bilər

## Professor Sahib Musayev: “Revmatik xəstəliklər zamanı əksər orqan və toxumalar zədələnir”



**Revmatik xəstəliklərin əhali arasında adətən soyuq aylarda geniş yayıldığını bilirik. Amma havalar istiləşəndən sonra da Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Revmatologiya və qastroenterologiya şöbəsinə müraciət edənlərin sayı çoxalıb. Bunun səbəblərinə aydınlıq gətirmək üçün adıçəkilən şöbəyə rəhbərlik edən professor Sahib Musayevə müraciət etdik.**

Professor revmatik xəstəliklərlə bağlı geniş məlumat verərək, bu sahənin təbabətin ən çətin və hələ də öyrənilməyən problemlərindən biri olduğunu qeyd edib: “Revmatik xəstəliklər təbabətin ən qədim sahəsi hesab olunur. Birləşdirici toxumanın qarışıq xəstəlikləri, sistem qırmızı qurd eşənəyi, ankilozlaşdırıcı spondilit, kristallik artropatiya, reaktiv artritlər və bu kimi çoxsaylı revmatik xəstəliklər günümüzdə həllini tapmayan xəstəliklər sırasındadır. Revmatik xəstəliklər zamanı əksər orqan və toxumalar, o cümlədən oynaqlar, dəri, sinir, böyrəklər, ağciyər, ürək, bağırsaq, baş-beyin zədələnir”.

S.Musayev təkcə payız-qış aylarında deyil, eyni zamanda yay mövsümündə də əhali arasında bir sıra revmatik xəstəliklərin baş qaldırdığını, onlardan revmatoid artrit, sistem qırmızı qurd eşənəyi, sklerodermiya, dermatomiozit və podaqranın üstünlük təşkil etdiyini bildirib: “Sistem qırmızı qurd eşənəyi xəstəliyi ən çox iqlim dəyişiklikləri zamanı üzə çıxır. Bu xəstəlik yay aylarında fotosensiblizasiya, yəni həddindən artıq günəş şüalanması olan regionlarda çox yayılır. Qırmızı qurd eşənəyi ən çox yeniyetmə qızlarda, gənc analarda müşahidə olunur”.

Şöbə müdiri regionda daha çox yayılan revmatik xəstəliklərdən birinin podaqra olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu xəstəlik zamanı oynaq daxilində natrium-urat kristallarının toplanması nəticəsində həmin nahiyədə kəskin iltihabi proses başlayır və müəyyən vaxtdan sonra oynaqlar zədələnir.

Professor podaqranın səbəb olduğu bəzi fəsadlara toxunaraq, onun xroniki böyrək xəstəliklərinə, hipertoniyaya, 2-ci tip şəkərli diabetə, piylənməyə gətirib çıxardığını da qeyd edib: “Podaqraya tərkibi purillə zəngin qidaları normadan artıq qəbul edən şəxslərdə çox rast gəlinir. Xəstəlik qəfil başlayır. Ayağın baş barmağı qızarır. Həmin nahiyədə ciddi hərəkət məhdudluğu əmələ gəlir”.

Onu da öyrəndik ki, əgər revmatik xəstələr COVID-19-a yoluxarsa, onlarda ağırlaşma halları müşahidə olunur. Həmin şəxslərdə patoloji proseslər daha ağır gedir, onlar arasında ölüm faizi daha çox olur. COVID-ə yoluxmuş skelbermiyali xəstələrdə ağciyərlər ciddi zədələnməyə məruz qaldığından, xəstəliyin müalicə taktikası protokola tam uyğun aparılmalıdır.

Bəzən şahidi oluruq ki, revmatik xəstəliklərdən əziyyət çəkənlər Bakı ətrafında yerləşən və çoxlarımızın yanlış olaraq müalicə məkanı kimi qəbul etdiyimiz “duzlu göl”lərə üz tuturlar. Bununla bağlı sualımıza cavab verən professor Sahib Musayev həkim məsləhəti olmadan insanların müstəqil şəkildə göldə günəş vannası qəbul etməsinin xeyirdən çox zərərli ola biləcəyini qeyd edib: “Həmin insanlar “duzlu göl”-ün tərkibində olan neft sənayesi tullantıları, kanserogen maddə - benziprin ilə dərinin zədələndiklərinin fərqində deyillər. “Duzlu göl”dən istifadə edən revmatoloji xəstələrdə dərinin aşınması qeydə alınır. Hətta bəzilərində dəri xərçəngi yaranır”.

İsti yay aylarına qədəm qoymuşuq. Hamı sərinləmək üçün Xəzərə üz tutur, eyni zamanda dəniz havası udmaq istəyir. Amma professor məsləhət görür ki, revmatik xəstələr əvvəlcə mütləq həkim konsultasiyasından keçsinlər. Bu, həmin xəstələri sabah ağır nəticələrlə üzləşməkdən qoruya bilər.

**İsti yay günlərini yaşayırıq. Hazırda insanları ən çox narahat edən məsələlərdən biri də qızmar Günəşin təsirindən yaranan bir çox dəri xəstəlikləridir. Bu problemlərin yaranmaması üçün nələri bilmək lazımdır, onların müalicəsi necə aparılmalıdır və hansı dərman vasitələrindən istifadə etmək olar? Bu suallara aydınlıq gətirmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş dermatovenereoloqu, ATU-nun Dermatovenerologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Fərid Mahmudova müraciət etdik.**



# Qızmar Günəş və dəri xəstəlikləri

## Professor Fərid Mahmudov dərimizi Günəş şüalarının mənfi təsirlərindən qorumaq üçün məsləhətlər verir

**- Adətən yay aylarında bəzi insanlar dərisinin Günəş şüalarının təsirindən qaşındığını, qızardığını söyləyirlər. Bu hallara qarşı hansı tədbirləri görmək olar?**

- Buna müasir tibb elmində fotodermatoz deyirlər. Yəni dərinin Günəş şüası, o cümlədən ultrabənövşəyi şüalara məruz qalmasından meydana gələn anormal reaksiya. Simptomları dəridə səpkilər, şişmə və qabarcıqların olmasıdır. Günəşə qarşı həssas olan insanlar günün qızmar vaxtlarında çölə çıxmamalı, baş örtüklərindən, eynəklərdən, o cümlədən dərini qoruyan bir sıra kremlərdən (spf tərkibli) istifadə etməlidirlər. Fotodermatozun müalicəsində topik steroidlər, antihistamin preparatlardan istifadə etmək lazımdır.

**- Bəzən də açıq havada uzun müddət qaldıqdan sonra dəridə xoşagəlməz ləkələr yaranır. Bunun gələcəkdə sağlamlığa hər hansı təsiri olurmu?**

- Bu adətən bədənin üst nahiyəsində ləkə şəklində görünən bir xəstəlikdir. Bu xəstəliyə səbəb dərimizdə mövcud olan saprofit, yəni dərinin normal florası sayılan Pityrosporum ovale adlı zərərsiz maya göbələyidir. Onun sağlamlığa heç bir mənfi təsiri yoxdur. Ancaq dəridə kosmetik deffekt sayılır. Ləkələr açıq çəhrayı, tünd və açıq qəhvəyi, bəzən də ağ rəngdə olur. Məhz ona görə də bu xəstəliyin adı rəngbərəng dəmrovdur. Göbələyin dəridə yayılma səbəbi isti və nəmli havada çox tərləmək, dərinin yağlı olması, zəifləmiş immun sistemi, hormonal dəyişikliklər və sairdir. Rəngbərəng dəmrov daha sox yeniyetmə və gənc yaşlarda olur. Çünki məhz bu yaşlarda dəridə yağlanma başlayır və bu xəstəlik ən çox seboreik nahiyələrində (sinə, kürək, qolların üst hissəsi, boyun və baş) görünür. Həmin ləkələrin üzərində bəzən incə pulcuqlar da görünə bilər. Bu zaman heç bir subyektiv şikayət vermir, lakin başa yayılanda şiddətli qaşıntı ilə müşayiət oluna bilir.

Bu xəstəliyə diaqnoz müayinə zamanı qoyulur. Ona görə də bunun üçün heç bir analiz lazım deyil. Ancaq dəri rəngindən asılı olaraq səpkilərin tonları dəyişkən ola bilir, bunun üçün “vud lampası” ilə müayinə etmək lazım ola bilər.

**- Həkim, Günəşdən üzə tund ləkə düşməməsi üçün nə etmək lazımdır?**

- Bunun adı melasmadır. Bədənin Günəş görən hissələrində sonradan ortaya çıxan, qəhvəyi rəngdə ləkələr şəklində özünü göstərən bir dəri xəstəliyidir. Bu ləkələrə xloasma da deyilir. Adətən üzün hər iki tərəfi zədələnir, ən çox yanaqlar, burun, alın və dodaq üstündə görünür. Bu xəstəlikdən qorunmaq üçün Günəş işığına çıxmazdan öncə spf tərkibli qoruyucu kremlərdın istifadə etmək lazımdır. Payız aylarında isə həmin tünd ləkələr nisbətən solur.

**- Fərid müəllim, yay aylarında insanlarda qoltuqaltı nahiyə daha çox tərləyir. Buna qarşı hansı vasitələrdən istifadə etməyi məsləhət görərdiniz?**

- Həddən artıq tərləmənin ən müasir və təsirli müalicə növlərindən biri botulinoterapiya ilə müalicədir. Botoks tərkibində Botulinum deyilən bir toksin olan dərman vasitəsidir. Kosmetologiyada üzdəki qırışların aclması üçün botoks inyeksiyalarından geniş istifadə olunur. Eyni zamanda, botoks qoltuqaltı bölgədə həddindən artıq tərləməyə qarşı da istifadə edilir. Botoks vurulandan dərhal sonra çox tərləmə problemi aradan qalxır. Dərmanın təsiri 4-6 ay davam edir. Adətən ildə bir dəfə, havalar istiləşəndə bu proseduru təkrar etmək lazımdır.

**M.ƏLƏKBƏRLİ**

# Tələbəmizin uğuru

## Rəşad Alpaşayev beynəlxalq sertifikatlarla təltif edilib

**Universitetimizin tələbələri arasında gənc tədqiqatçılar çoxdur. Onlar dünyada baş verən yenilikləri maraqla izləyir, yerli və beynəlxalq konfranslarda mütəmadi olaraq elmi məqalələrlə çıxış edirlər. Belə gənclərdən biri də II Müalicə-profilaktika fakültəsinin tələbəsi Rəşad Alpaşayevdir.**


BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL
CERTIFICATE of PARTICIPATION
IS AWARDED
FOR
DISTINGUISHED PARTICIPATION
AT THE
PROCESS AUTOMATION AND INFORMATION SECURITY 2021
THE 2ND INTERNATIONAL STUDENT RESEARCH AND SCIENCE CONFERENCE DEDICATED TO THE 98TH ANNIVERSARY OF THE NATIONAL LEADER OF AZERBAIJAN HEYDAR ALIYEV
ELMAR GASIMOV
RECTOR
BAKU HIGHER OIL SCHOOL
27-28 APRIL, 2021
BAKU, AZERBAIJAN





HARVARD MEDICAL SCHOOL
Certifies that
Rashad Alpashayev
has participated in the enduring material titled
Cardiovascular Complications of COVID-19
June 03, 2020
This activity was designated for 1.00 AMA PRA Category 1 Credit™
Harvard Medical School is accredited by the Accreditation Council for Continuing Medical Education (ACCME®) to provide continuing medical education for physicians
Ajay K. Singh, MBBS, FRCP, MBA
Senior Associate Dean for Postgraduate Medical Education


Universitetimizin tələbələri arasında gənc tədqiqatçılar çoxdur... İştirakçısı olduğu konfranslarda və kurslarda xüsusi fəallığı ilə seçilən R.Alpaşayev bu günlərdə daha iki uğura imza atıb. O, Bakı Ali Neft Məktəbinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Tələbə və Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransında iştirak edib. Tədqiqatçı tələbə konfransa qatılmamışdan öncə ATU-nun Tibbi və bioloji fizika kafedrasının müəllimi, dosent İlqar Aslanovun elmi rəhbərliyi altında tezis hazırlayıb. Biometriyanın əsas üstünlüklərini, biometrik texnologiyaların istifadəsini, nəzarət nöqtəsindən keçən çox sayda insanın şəxsiyyətini yoxlamaq imkanlarını özündə əks etdirən tezis bəyənilib və tezis kitabçasında nəşr olunub.

Bundan sonra “Proseslərin avtomatlaşdırılması və informasiya təhlükəsizliyi – 2021” bölümü altında məruzələr dinlənilib. R.Alpaşayevin “Nəzarət sistemlərində şəxsiyyətin biometrik identifikasiya olunması” mövzusunda çıxışı maraqla qarşılanıb. Konfrans heyətindən əməkdaşlıq təklifi alan universitetimizin tələbəsi sonda fərqlənmə sertifikatı ilə təltif edilib.

R.Alpaşayevin başqa bir təltifi isə Harvard Universitetindən gəlib. Belə ki, o, adıçəkilən universitetin rəsmi saytında hər ay COVID-19 virusunun klinik-profilaktik cəhətdən idarə olunması mövzusunda təşkil edilən beynəlxalq kurslara qatılıb. Qaydaya görə, vebinarların mövzusuna dair final testi keçirilir və 75%-dən yuxarı nəticə əldə edən şəxslər xüsusi sertifikatla təltif olunur. Bu tələblərə cavab verən universitetimizin təmsilçisi R.Alpaşayev də hazırda öz aktuallığını qoruyan COVID-19-un səbəb olduğu kardiovaskular (ürək-damar sistemi) komplikasiyalar mövzusunda vebinarın final testindən uğurla keçib və həmin kurs üzrə sertifikata layiq görülüb.

# Bu il ATU-da magistratura pilləsini 13 nəfər bitirir




**5-6 iyul tarixlərində Azərbaycan Tibb Universitetinin Əczaçılıq (060801) ixtisasının Əczaçılıq kimyası (224133), Toksikoloji kimya (224164), Farmakoqnoziya (224148), Əczaçılıq texnologiyası (224156), Əczaçılığın təşkili (224172) ixtisaslaşmaları üzrə 2-ci kurs magistrantlarının onlayn formatda dissertasiya işinin müdafiəsi keçirilib.**

Ümumilikdə 2021-ci ildə ATU-da magistratura təhsil pilləsini 13 magistr bitirir: Əczaçılıq kimyası - 3 nəfər, Toksikoloji kimya - 3 nəfər, Farmakoqnoziya - 3 nəfər, Əczaçılıq texnologiyası - 3 nəfər, Əczaçılığın təşkili - 1 nəfər.

Onu da qeyd etmək lazımdır ki, ATU-da ilk dəfə olaraq xarici vətəndaş - Kamerun vətəndaşı Myriam Mopia ingilis dilində müdafiə edərək Farmakoqnoziya ixtisası üzrə magistr dərəcəsinə layiq görülüb.

Bu il magistr dərəcəsini alan bütün magistrantlarımızı səmimi qəlbdən təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzu edirik!

# “Azərbaycanda insult mərkəzlərinin yaradılmasına böyük ehtiyac var”

## Dilarə Xəlilova: Ənənəvi metodlar effektli olsa da, trombolizis müalicənin yerini vermir

**Hər il dünyada 16-17 milyon insan insult keçirir. Bu statistikada Azərbaycan da yer alır. Amma təəssüf ki, qonşu ölkələrdən fərqli olaraq, bizdə insult xəstələrini müalicə etmək üçün heç bir mərkəz fəaliyyət göstərmir. Bu barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş nevroloqu, Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Dilarə Xəlilova məlumat verib.**



D.Xəlilovanın sözlərinə görə, onlara ən çox müraciət edənlər xroniki və kəskin beyin qan dövranı pozuntuları olan xəstələrdir: “İnsult yüksək ölüm (ölüm sayına görə 2-ci yeri tutur) və əlillik təhlükəsi yaradır. Bu insanların yalnız 15-20 faizini əvvəlki həyat tərzinə qaytarmaq mümkün olur. Xəstələrin əksəriyyəti isə müxtəlif dərəcəli əlillik alırlar. Məhz buna görə insult tək tibbi yox, eləcə də sosial yönümlü bir problemdir”.

Nevroloq D.Xəlilova xəstəliyə əsasən yaşlı, ahıl şəxslərin məruz qaldığını, amma bəzən uşaqlar və gənclər arasında da beyin qan dövranının pozulması hallarına rast gəlindiyini qeyd edib. O, xəstəliyi yaradan risk amillərinin hədsiz çox olduğunu deyib: arterial hipertenziya, şəkərli diabet, ürək xəstəlikləri, o cümlədən ürək ritminin pozulmaları, böyrək və qaraciyər xəstəlikləri, hiperxolesterinemiya, hipodinamiya, piylənmə və s. Bundan başqa, zərərli vərdişləri də qeyd etmək lazımdır: alkoqolizm, siqaret çəkmə, narkomaniya. İrsi meyilliliyi, gündəlik yaşadığımız stresi də unutmaq olmaz. Göstərilən amillər mütləq insult yaratmır, amma xroniki beyin qan dövranının çatışmazlığına və ya pozulmasına səbəb ola bilirlər.

D.Xəlilova ölkəmizdə insult mərkəzlərinin olmaması ilə bağlı narahatlığını da çatdırıb: “Xaricdə, o cümlədən qonşu ölkələrdə insult mərkəzləri fəaliyyət göstərir. Bu cür xəstələr aşkar olunanda, onları təcili insult mərkəzlərinə çatdırırlar. Artıq təcili yardımda insultlu xəstələr üçün vacib olan qan testləri götürülür, EKQ edilir, simptomatik yardım göstərilir. Mərkəzlər bu tip xəstələrin müalicəsi üzrə ixtisaslaşdığından, tez bir zamanda lazımi müayinə aparıb (o cümlədən kranial KT), əks göstəriş olmasa, trombolizis müalicəsi tətbiq edirlər. Trombolizis düzgün seçim edilmiş xəstələrdə vaxtında aparılarsa, həm ölüm, həm də əlillik ehtimalı azalmış olur. Bu, böyük bir sistemin birgə və razılaşdırılmış fəaliyyəti nəticəsində mümkün olur.

Amma bizdə hələ ki belə mərkəzlərin yaradılması üçün müzakirələr aparılır. Azərbaycanda bu cür xəstələr aşkar olunanda onların somatik vəziyyəti, nevroloji statusu qiymətləndirilir, radioloji müayinə aparılır və müvafiq müalicə həyata keçirilir. Doğrudur, bu müalicənin effekti olur, amma trombolizis sisteminin yerini vermir”.

**Son illər Azərbaycan Tibb Universitetində yeni ixtisaslar üzrə mütəxəssis hazırlanmasına başlanılıb. Bununla bağlı sorğumuzu cavablandıran İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev yeni ixtisasların yaradılması zərurətindən danışıb.**



# Həkimlərə dəstək olacaq mütəxəssislər hazırlanır

## ATU-da iki yeni ixtisas üzrə bu il də qəbul aparılacaq

O, İctimai səhiyyə fakültəsinin I kursunda Fizioterapiya və tibbi reabilitasiya ixtisası üzrə 38, Tibb bacısı ixtisası üzrə isə 34 tələbənin təhsil aldığını bildirib. Hər iki ixtisasın tədris proqramlarının Avropa tədris proqramlarına uyğun şəkildə hazırlandığını, universitetimizlə qardaş Türkiyə Cümhuriyyətinin universitetləri arasında memorandum imzalandığını söyləyən fakültə dekanı qeyd edib ki, tələbələrimiz bu sənədlər əsasında Qazi və Ankara universitetlərinin tədris proqramlarına qatılmaq imkanı qazanıblar. Belə ki, tələbələrimiz Türkiyədə eyni ixtisas üzrə oxuyan tələbələrin dərslərinə onlayn şəkildə qoşularaq öz bilik və bacarıqlarını artırırlar.

Tibb bacısı ixtisası üzrə kadrların əvvəllər kolleclərdə, texnikumlarda hazırlandığını xatırladan professor A.Ağayev, artıq Avropada mövcud olan təcrübəni ölkəmizdə tətbiq etməyə başladıqlarını vurğulayıb. Bildirib ki, bu ixtisasa yiyələnən tələbələrin magistratura proqramlarında iştirak etmək hüququ da yaranacaq. Halbuki, nə bizdə, nə də Avropada texnikum, kollec tələbələrinin belə bir hüququ var. Bu nöqteyi-nəzərdən, bakalavr səviyyəsində ali təhsil alan tibb bacılarının timsalında həkimlərə lazımi səviyyədə dəstək göstərə bilən köməkçi mütəxəssislər yetişəcək.

A.Ağayev yeni ixtisaslar üzrə təhsil alan tələbələrə Avropa ölkələrində bu sahə üzrə ixtisaslaşmış mütəxəssislərin dərs keçdiyini diqqətə çatdırıb. O, Türkiyədən dəvət olunmuş Mədinə Dərya xanımın Tibb bacısı, Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya şöbəsinin əməkdaşı Turqay Şahinin isə Fizioterapiya və tibbi reabilitasiya ixtisası üzrə mütəxəssis olduğunu söyləyib.

Qeyd edək ki, 2020-2021-ci tədris ilindən ATU-da bakalavriat səviyyəsi üzrə “Fizioterapiya və tibbi reabilitasiya”, “Tibb bacısı işi”, magistratura səviyyəsi üzrə isə “Klinik (tibbi) psixologiya” və “Səhiyyə sahəsi üzrə menecment” ixtisaslarına qəbul aparılır.



# Fəal tələbələrə sertifikatlar verilib

**Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) intellektual oyunlar klubunun fəalları və sosial-ictimai işlər üzrə aktiv olan tələbələrlə görüş təşkil edib.**

Görüşdə çıxış edən ATU THİK-in sədri Elvin Kərimli intellektual oyunlar klubunun fəaliyyətinin komitə tərəfindən daim dəstəkləndiyini qeyd edib. O, klubun qarşısında duran vəzifələr, yeni layihələr və ideyalar haqqında iştirakçılara məlumat verib. THİK sədri tələbələrə bundan sonra da fəal olmağı, peşəkar kadr kimi daha yüksək nailiyyətlər əldə etməyi arzulayıb.

Sonra Nəsimi rayon İcra Hakimiyyətinin Gənclər və idman idarəsinin rəisi Şahmar Tağıyev də tələbələri təbrik edib. O, idarənin ən aktiv üzvlərinin məhz Azərbaycan Tibb Universitetinin tələbələri olduğunu fəxrlə qeyd edib.

Görüşün sonunda THİK-in tədbirlərində fəallıq nümayiş etdirən tələbələr sertifikatla təltif olunublar. ATU THİK növbəti tədris ili üçün də tələbələri təşkilatın nəzdindəki klub və departamentlərə qoşulmağa, boş vaxtlarını səmərəli keçirməyə dəvət edir.

# Qalxanvari vəzin cərrahiyyəsində əvəzolunmaz cihaz

## Tədris Cərrahiyyə Klinikasında “Neyro monitorinq”in vasitəsilə tam təhlükəsiz əməliyyatlar həyata keçirilir

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında müasir texnologiyalara əsaslanan cihazlardan geniş istifadə olunur. Onlardan biri də qalxanvari vəzin əməliyyatı üçün nəzərdə tutulmuş “Neyro monitorinq” cihazıdır.**



Bu cihazın əhəmiyyəti barədə ATU-nun I Cərrahi xəstəliklər kafedrasının assistenti, cərrah-endokrinoloq t.ü.f.d. Azər Hümmətov qəzetimizə məlumat verib: “Bildiyimiz kimi, qalxanvari vəzin arxasında qaydan qırtlaq siniri yerləşir. Bu sinir bizim səs tellərimizi innervasiya edir. Cərrahi əməliyyat zamanı səs tellərimizi qorumaq üçün bütün dünyada bu cihazdan istifadə edilir. Ölkəmizdə isə Tədris Cərrahiyyə Klinikası fəaliyyətə başladığı gündən “Neyro monitorinq” cihazı xəstələrimiz üzərində tətbiq olunur. Qeyd etdiyim kimi, bu cihazın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, səs sinirinin tamlığını qoruyub saxlayır. Əməliyyat zamanı sinir bu cihaz vasitəsilə müəyyən edilir və əməliyyat daha təhlükəsiz şəraitdə icra olunur. Həm əməliyyatdan öncə, həm də əməliyyatdan sonra xəstədə hər hansı mənfi dəyişiklik olmur. Qaydan qırtlaq sümüyünün müəyyən edilməsində bizə kömək etməklə yanaşı, bu cihazın başqa faydası da var. Belə ki, əməliyyat zamanı hər hansı sinirə toxunma baş verərsə və yaxud sinir bağlanarsa, onun vasitəsilə həmin yer müəyyən edilir və biz rahat şəkildə o hissəni, daha doğrusu, sapla bağlanmış düyünü tapıb açırıq və sinirin keçiriciliyini yoxlayırıq. Əgər sinirin keçiriciliyində heç bir problem yoxdursa, əməliyyat uğurla tamamlanmış hesab olunur. Beləliklə, bu cihazın üstün cəhəti xəstələrin təhlükəsizliyinə zəmanət verməklə aparılan cərrahi əməliyyatın uğurla həyata keçirilməsinə imkan yaratmasıdır”.

A.Hümmətovun sözlərinə görə, son illər bütün dünyada olduğu kimi, ölkəmizdə də qalxanvari vəz xəstəliklərindən əziyyət çəkənlərin sayı çoxalıb: “Belə əməliyyatları daha təhlükəsiz şəraitdə, yeni siniri qorumaq şərti ilə həyata keçirmək üçün tərəfimizdən “Neyro monitorinq” cihazı tətbiq olunur. Əməliyyat zamanı cərrahı stresdən azad edən bu cihaz qalxanvari vəzin cərrahiyyəsində çox yüksək texniki imkanlara malikdir”.

Həkim sonda qeyd etdi ki, elə bu günlərdə “Neyro monitorinq” cihazının vasitəsilə növbəti xəstə üzərində tam təhlükəsiz və rahat şəkildə qalxanvari vəzin cərrahi əməliyyatı uğurla həyata keçirilib.

# “Heç filmlərdə belə səhnələr görməmişdim”

## ATU-nun əməkdaşı, Vətən müharibəsinin iştirakçısı Aqşin Həsənli Şuşanın necə alınmasından danışır






Şanlı qələbəmizdə onun da payı var. Vətən müharibəsində iştirak etdiyi üçün özünü çox xoşbəxt sayır. Deyir ki, Qarabağın işğaldan azad olunması bir azərbaycanlı kimi onun da arzusu olub. Ona görə döyüşə könüllü gedib. Şuşanın alınmasınadək ağır döyüşlərdə olub. Maraqlı döyüş xatirələri var. Haqqında söhbət açacağımız qəhrəman Azərbaycan Tibb Universitetində mühafizəçi vəzifəsində çalışan Aqşin Həsənlidir.

1991-ci ildə Bakıda anadan olmuş Aqşin ötən il sentyabrın 27-dən könüllü olaraq müharibəyə qoşulub. Oktyabrın 1-dən Cəbrayıl istiqamətində döyüşlərdə iştirak edib. O həm yeni mövqelər əldə etmiş hərbçilərimizin ərzaqla təminatı ilə məşğul olur, həm də qızğın döyüşlərdə düşmənə qarşı vuruşurdu. Oktyabrın 10-da isə Füzuli istiqamətində gedən döyüşlərin iştirakçısı olub. Oktyabrın 18-də “İlandağ” deyilən ərazidəki posta idarə etdiyi “UAZ”la yemək apararkən düşmənin raket atəşinə tuş gəlir. “UAZ” partlayışın zərbəsindən dərəyə yuvarlanır. Aqşin və əsgər yoldaşı ağır yaralansa da, xoşbəxtlikdən sağ qalırlar. İki saat sonra vəziyyətdən xəbər tutan əsgərlərimiz onları xilas edərək hospitala aparırlar.

Aqşin kəllə-beyin travmasından müalicə alır. Həkimlər ona müharibəyə getməyə icazə verməsə də, Aqşin yenidən Cəbrayıldakı tabora qayıdır: “Ən böyük arzularımdan biri Şuşanın azadlığı uğrunda döyüşlərdə iştirak etmək idi. Torpaqlarımızı azad görmək istəyirdim. Ona görə Cəbrayılda yerləşən taborumuza qayıtdım. Xalam oğlu Tahir Qarayev də həmin taborda vuruşurdu. Yenidən döyüşlərdə iştirak etdim. Noyabrın 1-də taborumuz Şuşa istiqamətində irəliləmək əmrini aldı. Meşədən Şuşa qalasına tərəf hücuma keçdik. Şəhərin alınması üçün əlbəyaxa döyüşlər başladı. Mən heç filmlərdə belə səhnələr görməmişdim. Bizim əsgərlərimiz sanki dağı yararaq Şuşaya daxil oldular. Onlar təsəvvür edilməyəcək dərəcədə rəşadətlə vuruşurdular. Şuşaya daxil olanda sevindiyimdən hönkür-hönkür ağladım. Bu yaşadək o cür göz yaşlarına qərq olduğumu xatırlamıram. Şəhərdə mülki əhali də var idi. Elə bildilər ki, biz onları da öldürəcəyik. Bizə yalvarırdılar ki, onlara dəyməyək. Amma onlara başa saldıq ki, biz erməni deyilik, əliyalın dinc əhaliyə qarşı silah işlətmərik. Onları sağ-salamat buraxdıq, ətraf ərazilərə getdilər. Gözlərinə inanmırdılar. Ermənilər Şuşanı tərk edəndə özləri də etiraf edirdilər ki, “bizimkilər olsaydı, sizinkilərə qarşı vəhşilik edər, işgəncə ilə öldürərdilər”.

Aqşin Şuşa alınandan sonra “Şuşa türməsi”ndə, Cıdır düzündə, İsa bulağında olduğunu da bildirdi. Qarabağın füsunkar gözəlliyinə heyran olan Aqşin, Şuşanı xüsusi vurğuladı.

Noyabrın 9-u üçtərəfli müqavilə bağlanandan sonra Aqşin ordudan tərxis olunub. O, Prezidentin sərəncamı ilə Füzuli, Xocavənd, Şuşa və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif olunub. Müdafiə Nazirliyi tərəfindən ona “Cəsur döyüşçü” medalı və fəxri fərmanlar verilib.

Aqşin dövlətimizin ona və ailəsinə göstərdiyi qayğıdan razıdır. Müharibə dövründə ailəsinə maddi və mənəvi dəstək olunmasına görə təşəkkür edir.

**Q.ABDULLAYEV**

# Tədris Terapevtik Klinikada Tibbi Şuranın yekun iclası keçirilib

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Tibbi Şuranın yekun iclası keçirilib. Toplantıda klinikanın iyun ayı üçün fəaliyyəti qiymətləndirilib və qarşıdakı dövr üçün vəzifələri müzakirə olunub.

Klinika direktorunun müalicə işləri üzrə müavini Fəridə Hacıyeva iyun ayı ərzində ambulator və stasionar xəstə qəbulu, müəssisənin tibbi fəaliyyəti barədə ümumi məlumat verib.

Daha sonra çıxış edən klinikanın direktoru, professor Surxay Musayev iyunun 12-dən etibarən kafedralarda məzuniyyətin başlayacağını, bununla yanaşı, klinikanın fəaliyyətini davam etdirəcəyini vurğulayıb. Klinikanın işinin təşkili, qarşıda duran məsələlər haqqında danışan professor Surxay Musayev məzuniyyətə gedən professorlara və digər tibb işçilərinə xoş istirahətlər arzulayıb.

Toplantıya bir sıra cari məsələlərin müzakirəsi ilə yekun vurulub.

# Əməkdaşımız karate yarışlarında hakimlik edir



**ATU-nun Tədris Cərrahiyyə Klinikasının nəzarət şöbəsinin nəzarətçisi Azər Cəfərov həm də peşəkar idmançıdır. O, 1993-cü ildən etibarən 6-cı dan qara kəmər sahibi Allahverdi Rüstəmovun başçılığı altında kyokuşin karate üzrə peşəkar səviyyədə məşqlərə başlayıb. Bir neçə il ərzində respublika və beynəlxalq səviyyəli müxtəlif yarışların mükafatçısı olub.**

A.Cəfərov 2003-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmət keçən zamanı N saylı hərbi hissənin Fiziki hazırlıq və idman rəisi vəzifəsində çalışıb. Bu dövrdə o, Müdafiə Nazirliyinin keçirdiyi idman yarışlarında iştirak edib və mükafatlandırılıb. Son vaxtlarda isə kyokuşin karate üzrə keçirilən yarışlarda hakimlik edir. 2019-cu ildə keçirilən respublika çempionatında ən yaxşı hakim seçilib.

Universitetimizin əməkdaşı 26-27 iyun 2021-ci il tarixdə Gürcüstanın paytaxtı Tbilisi şəhərində beynəlxalq dərəcəli hakimlərin seminarına qatılıb və Avropa çempionatında karate döyüşlərinə hakimlik etmək üçün lisenziya alıb. Və hansı döyüşlərdə hakimlik etdiyi nəzərə alınaraq, yarışın ən favorit döyüşçüsü, 20 dəfə Avropa çempionu, bolqarıstanlı 5-ci dan kəmər sahibi Voleri Dimitrovun döyüşündə hakimlik ona həvalə olunub. Sonda hakimlər kollegiyası A.Cəfərovun hakimliyinə müsbət rəy veriblər.

Peşəkar fəaliyyətini ATU-nun “Təbib” idman klubunun təşkilatçılığı ilə keçirilən tədbirlərdə davam etdirən A.Cəfərov, universitetimizin idman şərəfini bundan sonra da qorumağa çalışacağını bildirib.

# Koronavirusun “Delta” və “Delta plus” ştammı nədir?



**Koronavirus pandemiyası ilə mübarizənin ilk günlərindən başlayaraq ən böyük problemlərdən biri də mutasiyaya uğrayan yeni ştamların meydana gəlməsidir. Son qeyd olunan ştamm isə Delta ştammıdır.**

Delta ştammı (B.1.617.2) ilk dəfə 2020-ci ilin oktyabr ayında Hindistanın Nagpur kəndində qeydə alınıb. Qısa müddət ərzində Braziliya və Cənubi Afrika ştammından daha təhlükəli olduğu sübut edilib. Əgər koronavirusun ilk ştammında bir nəfər üç nəfəri, İngiltərədə aşkarlanan Alfa (Kent) ştammında dörd nəfəri yoluxdura bilirdisə, Delta ştammını daşıyan bir nəfərin isə 6 nəfəri yoluxdura bildiyi məlumdur. Bu ştamm mutasiyaya uğramış digər ştamlardan virulentliyinin daha yüksək olması ilə seçilir (%60).

COVID-19 virusunun digər ştamlarında əsas əlamət yüksək temperatur, davamlı öskürək, dad və ya qoxu hissinin itməsidirsə, Delta ştammında başağrısı, burun axıntısı və boğaz ağrısından şikayətlər daha çox olur. Qeyd olunan bu şikayətlər soyuqdəymə əlamətləri ilə eyni olduğu üçün insanlar COVID-19 virusundan şübhələnməyib, daha çox insanın yoluxmasına səbəb ola bilərlər. Ona görə bu kimi şikayətləri olan hər kəs həkim müayinəsindən keçməlidir. Eyni zamanda mədəağrısı və ishal kimi fərqli simptomlar da qeyd oluna bilər.

ÜST, Delta ştammının artıq 96 ölkədə qeydə alındığını bildirir. Delta ştammının bir alt tipi olan Delta plus (B.617.2.1) isə ilk dəfə 11 iyun tarixində aşkarlanıb. Artıq 11 ölkədə yoluxma faktları qeyd olunub.

Hal-hazırda dünyada və ölkəmizdə istifadə olunan hər bir vaksin mutasiyaya uğramış yeni ştamlara qarşı effektlidir. Vaksinlər xəstəliyin yüngül keçirilməsi və ölüm riskinin azaldılması baxımından da təsirlidirlər.

Bütün bunları nəzərə alaraq, hər bir vətəndaş vaksinasiya olunmalı və qorunma tədbirlərinə ciddi riayət etməlidir.

# İctimai səhiyyə fakültəsində yeni növ təlimlər silsiləsi davam edir



**Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin təşkilatçılığı ilə səhiyyə təşkili üzrə təlim keçirilib. Təlimdə səhiyyə sahəsində iqtisadi və tibbi səmərələdirici strategiyaların tərtib və tətbiq edilməsi, o cümlədən digər mövzularda müzakirələr aparılıb. Təlim ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasında baş tutub.**

ATU-nun İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev çıxış edərək, gələcəyin həkimləri üçün bu mövzuda praktiki bacarıqlarının olmasının böyük əhəmiyyət kəsb etdiyini, bu baxımdan belə treninqlərin vacib olduğunu qeyd edib.

Daha sonra ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dissertantı Qasım Əmrahlı mövzu ilə bağlı bir çox məsələlərdən danışıb.

## Allah rəhmət eləsin!

II Mamalıq-ginekologiya kafedrasının kollektivi kafedranın əməkdaşı Günay Məmmədliyə nənəsi

**Əzizə Zülfüqarovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Etibarsız sayılır

I Müalicə-profilaktika fakültəsinin tələbə kontingentində qalan məzunu (qrup 74B) Yusifov Usub Səftər oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır*

Qəzet “Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKF-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2250